Nəriman Nərimanov - 150

# Bütöv Şərqə məxsus şəxsiyyət

*(Əvvəli qəzetimizin 01 oktyabr tarixli sayında)*

**Nəriman Nərimanov təkcə Azərbaycanı yox, bütün Şərqi düşünürdü. O öz məruzə və çıxışlarında Türküstan, Əfqanıstan, Türkiyə, İran və digər Şərq ölkələri ilə aparılan siyasətə xüsusi diqqət yetirirdi. Şərq siyasəti yalnız xarici dövlətləri deyil, həm də sovet şərq respublikalarını maraqlandırırdı. Sovet Şərqi xalqlarının öz müqəddəratını təyin etməsi problemi daha çox problemlər doğurmuşdu. N.Nərimanov bu məsələlərlə əlaqədar dəfələrlə V.İ.Leninlə danışmış, İ.V.Stalinə müraciət etmişdi. Türküstandakı vəziyyətlə bağlı yazırdı: "Türküstandakı siyasətimizə mənim nə qədər əhəmiyyət verdiyimi məruzəmdən görmək olar ki, burada mən yoldaş Stalinə Genuyaya yola düşənə qədər yerlərdə özümüzün yaratdığımız nöqsanlarla tanış olmaq üçün mənimlə birlikdə Türküstana yola düşməyi təklif etdim".**

Bu haqda danışarkən Nərimanov xalqın dini hisslərinin təhqir edilməsini, ateizm təbliğatında dindarlarla fərdi iş aparmaq əvəzinə zor göstərmək metodlarından istifadə hallarını nəzərdə tuturdu.

Azərbaycanda sovet hakimiyyətinin ilk illərində və sonralar da özünü göstərən bu nöqsanlar Nərimanovu çox düşündürürdü. Məruzəsində ürək ağrısı və hiddətlə yazırdı ki, onun olmamasından istifadə edən (bu zaman o, Genuyada idi) bəzi respublika rəhbərləri matəm günlərində "şaxsey-vaxsey" yürüşünü qadağan etmişlər. Nəticədə əsgərlərlə fəhlələr arasında toqquşma olmuşdur.

**Nərimanovun fikrincə, ateizm təbliğatında inandırma və izah etmə metodu əsas götürülməli idi. O yazırdı:** "Mən qəti olaraq repressiya əleyhinə idim, lakin bununla belə, biz məscidlərə gəlib, qara camaatı dilə tuturduq ki, küçələrdə özlərinə işgəncə verməsinlər. Bir nəticəsi oldumu? Qəti surətdə bildirirəm ki, nəticəsi oldu. Məsciddə çox nüfuzlu bir molla bu günlərdə küçələrdə özlərinə işgəncə verənlərin hərəkətlərini möhkəm tənqid etməyə başladı. Lakin buna baxmayaraq, bu il özlərinə işgəncə verənlər oldu".

Nərimanov daha sonra davam edirdi: "Dinə qarşı materialist kimi çıxış etmək bir şeydir, bu mərasimlərin icrasını qadağan etmək məqsədilə silahlı qüvvə tətbiq etmək başqa şey". O, belə hesab edirdi ki, "ancaq vəzifə almaq xatirinə kommunizm ideyalarını yayanları" cəzalandırmaq lazımdır.

N.Nərimanov xalqın uzunəsrlik adət-ənənələrinə qarşı olduqca ehtiyatlı olmağı məsləhət görürdü. Müsəlman qadınlarının çadra örtməsinə qarşı kampaniya aparılanda o, təkidlə tələb edirdi ki, ictimai həyatın yenilənməsi prosesində vaxtından əvvəl ifrata varıb, çadranı qadınların başından dartmaq lazım deyil, bunun acınacaqlı nəticəsi ola bilər - ər arvadını, ata qızını, qardaş bacısını öldürər. Təbiidir ki, xalqımızın bu böyük ictimai xadimi və yazıçısı azərbaycanlı qadınların ömrü boyu çadraya bürünməsinin əleyhinə idi. Lakin xalqının milli psixologiyasını yaxşı bildiyindən bu işdə ehtiyatlı olmağı, tələsməməyi tövsiyə edir və deyirdi ki, həyatın inkişafı özü tədricən köhnəliyin qalıqlarını aradan qaldıracaqdır.

Nə qədər ki, Nərimanov Azərbaycanda idi, o, xalqın milli hisslərinə həm özü hörmət edirdi, həm də başqalarını buna dəvət edirdi.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Nərimanov XKS-in sədri olanda dəfələrlə Təzəpir məscidinə gedib, əsl müsəlman qaydası ilə orda bardaş qurub oturub, din xadimləri və dindarlarla söhbət etmişdir. Kütlələr içərisində həqiqi din xadimlərinin nüfuzunu Nərimanov yaxşı bilir və yeri gələndə bundan istifadə edirdi.

Vaxtilə Nərimanovu görən, onun çıxışlarını dinləyən yaşlı nəslin bir sıra nümayəndələri söyləyirdilər ki, bir çox məsələləri yoluna qoymaq üçün Nərimanov din xadimləri ilə görüşür, onlarla məsləhətləşirdi.

Bir dəfə o, Təzəpir məscidində dindarlar və camaat qarşısında çıxış edib, gənc azərbaycanlı oğlanlarını neft və digər sənaye sahələrində işləməyə çağırır. Deyir ki, qoy özümüzkülər işləsin, gənclərimiz sənətə, texnikaya, elmə yiyələnsinlər, belə olarsa, özgələrə ehtiyacımız olmaz. Sonra o bu iş üçün din xadimlərindən kömək etmələrini təvəqqə edir. Deyirlər ki, Nərimanovun həmin çıxışından sonra minlərlə gənc azərbaycanlı sənayenin müxtəlif sahələrində çalışmağa başladı. Əlbəttə, bu işdə bütün xalq kimi Nərimanova böyük hörmət bəsləyən din xadimlərinin rolu da olmuşdu.

**Xatirələrdə söylənilir ki, Nərimanov Azərbaycanın rayon və kəndlərində olanda da camaatla məscid həyatində görüşür, söhbət edir, yerlərdə əhalinin dərdindən, istəyindən hali olurdu. Onun Gəncədə, Şuşada, Bakıda, Lənkəranda, Masallı və başqa yerlərdəki məscidlərdə xalqla görüşləri hələ də xatirələrdə yaşayır.**

N.Nərimanov 1920-1922-ci illərdə Azərbaycan XKS-nin sədri işlədiyi müddətdə qoca sərkərdə (ona qarşı çıxanlar onu "Qoca" - yəni köhnə fikirli, geridə qalan bir rəhbər) adlandırırdılar.

Ancaq, N.Nərimanov başdan-ayağa milli olduqca həm də beynəlmiləlçi, sosializm (əlbəttə Marks və Engelsin yazdıqları və görmək istədikləri həqiqi sosializm) ideyalarına bağlı şəxs idi. O, qurama sosializm adında yaradılan ictimai-siyasi quruluşu qəbul edə bilmirdi. Onun Azərbaycandakı 2 illik həyatı kirovlara, mirzoyanlara, mikoyanlara və həm də yerli kosmopolitlərə qarşı gərgin mübarizədə keçdi. Ancaq o, bu az müddətdə öz xalqı, Vətəni üçün çox işlər gördü. Belə ki, Azərbaycanı müstəqil - Azərbaycan Sovet Sosialist Respublikası kimi qəbul etdirdi. Çox gərgin mübarizələr şəraitində İ.Stalinlə, G.Orconikidze və erməni daşnakları ilə pəncə-pəncəyə gələrək Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində saxlanılmasına nail oldu. Azərbaycan dilinin, mədəniyyətinin inkişafı üçün yaddaqalan, unudulmayan tarixi işlər gördü.

1922-ci il dekabrın 30-da SSRİ yaradılarkən N.Nərimanov RSFSR-dən SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri seçilir. SSRİ MİK-in 4 sədri seçilmişdi. RSFSR-dən Kalinin, Ukraynadan Çervyakov, Belarusiyadan Petrovski və dediyimiz kimi ZSFSR-dən (Zaqafqaziyadan) Nərimanov sədr seçildilər. Heç şübhəsiz, belə bir mötəbər vəzifəyə Leninin istəyi olmadan seçilmək olmazdı…

N.Nərimanov Bakıdan gedəndən sonra Azərbaycan əldən-ələ keçdi. Doğrudur, Nərimanov Moskvada olarkən də Azərbaycanla daima maraqlanır əlaqə saxlayırdı. Ancaq bütün bunlara baxmayaraq yerlərdə avtoritar bir rejim yaradıldı. Rusiyada nə qayda-qanun vardırsa və yaranırdısa, çox tezliklə Azərbaycanda bunlar qəbul olunur və fəaliyyət göstərirdi.

SSRİ MİK-nin sədri seçildikdən sonra Nərimanov özünün böyük istedadı və qabiliyyəti ilə Kremldə çox iş gördü. O, ən mühüm dekret, qərar və qətnamələrin hazırlanmasında, xarici siyasət tədbirlərində, xüsusən də Şərq məsələlərində, Şərq siyasətində mühüm rol oynamışdır. SSRİ-də Şərqşünaslıq Elmi Cəmiyyətinin təşkilində və onun "Noviy Vostok" jurnalının təsis olunması məhz onun xidmət, cəsarətinin nəticəsiydi…

1922-ci ilin sonlarına yaxın Lenin xəstələnib yatağa düşür və onu müayinə edən həkimlər bildirirlər ki, bolşeviklər partiyasının banisi və ilk sosialist dövlətinin yaradıcısının yataqdan qalxması müşkul məsələdir. Belə şəraitdə İ.Stalin hakimiyyəti, demək olar ki, öz əlində cəmləşdirir. Stalin Lenin deyildi və ola da bilməzdi. Lenində burjuaziyaya qarşı böyük amansızlıqlar vardısa da, bununla birlikdə o, yetərincə uzaqgörən siyasətçi, stratetik, kadrları bacarığına, dəyanətinə, təmizliyinə görə qiymətləndirən bir rəhbər idi. Nərimanov bunları bilirdi və çox keçmədi o başa düşdü ki, ölkədə sosializm baş-ayaq olacaq. Çox keçmədi amirlik prinsipi əsas prinsip oldu. Şərqə münasibət də kökündən dəyişdi. Ölkədə repressiya tüğyanı başladı. Xalqların milli, dini hissləri, adət-ənənələri tapdalanır, respublikalarda yerli dillərdə iş aparılmır, etiraz edənlər ellikcə məhv edilir. "Qolçomaq" burjuaziya ünsürü adı ilə minlərlə, milyonlarla ailələr insan yaşamayan yerlərə sürgün edilirlər. Məqsəd bu idi: SSRİ-də bir dil - rus dili, bir mədəniyyət, bir düşüncə tərzi olmalıydı…

Bəşəri qayələrlə yaşayan N.Nərimanov bunlara dözə bilməzdi və dözmədi də.

**Yuxarıda demişdik ki, Nərimanov bolşevik idi. Ancaq həqiqi bolşevik idi. Məncə "bolşevik" sözünü, marksist" adlandırsaq daha ədalətli olar. Ona görə də o, ölkədə soializm adı ilə görülən eybəcər işləri böyük vicdanı ilə həzm edə bilmirdi, içində də saxlaya bilmirdi. Qərara gəldi ki, ölkədə baş verən sonu görünməyən eybəcərliklər və eybəcərlikləri sosializm, partiya adından yaradanları göstərsin, ifşa etsin və etdi də…**



N.Nərimanov 1923-cü ilin yayında "Ucqarlarda partiyamızın tarixinə dair" (İ.V.Stalinə məktub) çox geniş məruzə yazır və onu məxfi sənəd kimi RK(b)P MK-ya İ.V.Stalinə, surətləri isə L.D.Trostski və K.B.Radekə göndərir. Məruzə iki hissədən ibarətdir: 1. Şərq məsələsi, 2. Azərbaycanda vəziyyət.

Məruzədə bir çox məsələlərə də yer verilmişdir. Məruzə çox emosional tərzdə yazılmışdır. Məktubda Nərimanov SSRİ-də milli siyasət, Azərbaycanda milli dövlət quruculuğu, fəhlə-kəndli münasibətləri, sol kommunistlərin milli məsələdə yol verdikləri əyintilərə öz fikirlərini bildirirdi. Bu fikirlərin özəyi o idi ki, biz (yəni SSRİ) Qərbə həddən artıq aludə olub, Şərqdən uzaqlaşırıq. Axı Şərq siyasətində belə sapmalar Şərqin də sovet respublikalarına da başqa münasibət yaradırdı.

Moskvaya gəldikdən sonra Nərimanov Azərbaycanda yaranmış ağır vəziyyət bu vətənpərvər insanı olduqca narahat edirdi. Həm Bakı partiya təşkilatının, həm də Bakı Sovetinin bolşevik donunda olan ermənilər və başqa millətlərin əlində olması şəhərdə yerli əhalinin kəskin narazılığına səbəb olurdu. Azərbaycanlı fəhlə hər hansı bir məsələ üçün öz dilində ərizə yazırdısa, onun ərizəsi qəbul edilmir, həmin fəhləyə "ərizəni dəyişdir, rus dilində yaz" deyirdilər. O, Siyasi Büroya yazdığı məktubunda belə dərin məsələlərə toxunurdu. Öz məktubunda tərkibinin çox az faizini yerli əhali təşkil edən Bakı Sovetinin məsul işçilərinin siyahısını göstərir və bunun milli siyasətin təhrif edilməsi sayırdı. Nərimanov Siyasi Büro qarşısında məsələ qaldırır ki, Bakıda hasil olan neft məhsullarının müəyyən faizi Azərbaycan üçün ayrılsın. Bununla əlaqədar məktubunda yazırdı: "Azərbaycan kəndlisi ağ neft olmadığı üçün talaşa yandıranda, azərbaycanlı vətəndaş Tiflisdə ağ neftin Gəncədəkindən ucuz satıldığını görəndə… tənə, ittiham eşitməyə məcbur olursan…

Sonra o, davam edirdi: "Mən həmişə bu nöqsanları göstərirdim və əlbəttə "millətçi" adını qazanmışam".

O vaxt bunları yazmaq, göstərmək, tələb etmək asan məsələ deyildi. Bununçün böyük cəsarət, mərdanəlik lazım idi. Məktubu oxuyanda hiss edib, görməmək mümkün deyildir ki, N.Nərimanovda necə böyük, hətta sözlə ifadə edilməsi mümkün olmayan cəsarət, mərdlik, mübarizlik və səmimilik vardır.

SSRİ-də yeni ictimai quruluşun əsas məsələlərindən biri azad millətlərin ittifaqını möhkəmləndirmək, onların könüllü olaraq birləşməsinə nail olmaq idi. Əlbəttə bu işdə tələsməyə yol vermək olmazdı. Ancaq, ölkədə qarşıda duran məsələləri tez, sürətlə və birdəfəlik həll etməyə çalışanlar inandırmağa çalışırdılar ki, sərt mərkəzləşdirmə bunun üçün isə amirlik metodları - ən yaxşı metodlardır. Nərimanov belə yanaşmanın əleyhinə idi. Məhz buna görə də Azərbaycan və Zaqafqaziya partiya təşkilatlarının bəzi rəhbərləri ilə bu məsələdə N.Nərimanov arasında ixtilaflar yaranmışdı.

**Bütün bunlar barəsində öz məktubunda Siyasi Büroya məlumat verərək bu işlərə aydınlıq gətirir. Onun mülahizələrinin doğru olduğunu mərkəzdən gələn yoxlamaların nəticəsi də sübut edirdi…**

Nərimanov bir milli patriot kimi Bakıda yuva salmış, hələ də daşnak libasını soyunmamış, yeni bolşevik şinelinə bürünmüş erməni liderləri - Mikoyanı, Mirzoyanı, Sarkisi və başqalarını, sözün həqiqi mənasında ifşa edirdi. Erməni ünsürlərinin partiya və sovet idarələrində iş fəaliyyətlərini "yoxlamaq lazımdır" deyirdi. Ermənilərin buməlqun sifətlərini doktor çox yaxşı bilirdi və onların qlaflarını, onları müdafiə edən, onlara sipər, arxa olan Stalinin, Orconikidzenin, Çiçerin və b. olduğunu da bilirdi və yeri gələndə açıq, çəkinmədən, heç nədən qorxmadan deyirdi. Mikoyan və onun Ko-ları başdan-ayağa beynəlmiləlçi olan Nərimanovu millətçi kimi qələmə verməyə çalışırdılar. O, yazırdı: …Mənim "Bahadır və Sona" romanım yoldaş Mikoyan hələ daşnak olarkən müvəffəqiyyət qazanmışdı. Onda nə üçün 20 il keçdikdən sonra mən millətçi olmalıyam, yol. Mikoyan isə beynəlmiləlçi".

O vaxt BEKA (Bakı Partiya Komitəsi) ermənilərin əlində idi. Bu barədə məktubunda o, açıq göstərirdi ki, "Mikoyandan sonra BEKA-nın katibi Sarkis olur. Sarkisdən sonra isə Mirzoyan. Çox güman ki, Mirzoyandan sonra Kasparov olacaq və i.a. Mən bildirirəm ki, bu, ağılla düşünülmüş və düzgün hesablanmış bütöv bir plandır… bir çox mülahizələrə görə hələlik erməni yoldaşların görkəmli, məsul vəzifələrə təyin edilməsini dayandırmaq vacibdir".

Mən çox səmimiyyətlə deyirəm ki, o dövrdə belə yazmaq, hər şeyi olduğu kimi göstərmək, tələb etmək hər oğulun işi deyildi. Nərimanov isə təkcə cəsarətli dövlət, millət xadimi deyildi, o siyasi cəngavər idi. Belə şəxsiyyətlər isə çox az olur…

Tarixi bir həqiqətdir ki, ta qədimdən Azərbaycan torpağı olan Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması Nərimanovun misilsiz çarpışması, dönməzliyi nəticəsində olmuşdur. 1921-ci ildə Stalin və Orconikidze və b. Dağlıq Qarabağın Ermənistana verilməsinə tərəfdar idilər. Yenə təkrar edirəm, məhz millətimizin qeyrətli oğlu Nərimanovun dönməzliyi nəticəsində Qarabağ Azərbaycan SSR-in tərkibində qaldı. Bu barədə öz məktubunda Siyasi Büroya məlumat vermişdi.

Siyasi Büroya yazdığı məktubunda Qarabağla bağlı parçanı olduğu kimi oxuculara çatdırmaq istəyirəm. Bügünkü nəsil bunları bilməlidir…

**Nərimanov yazırdı:** "Mənim Azərbaycanda daşnak işi haqqında mülahizələrimin o biri yarısı, fikrimcə, elə bu il məlum olacaqdır. Dağlıq Qarabağ Mirzoyanın güclü təsiri altında Muxtar Vilayət elan edilmişdir. Mənim vaxtımda (oxu: 1920-1922-ci illərdə) bu mümkün olmamışdı, ona görə yox ki, mən bu muxtariyyətin əleyhinə idim, sadəcə olaraq ona görə ki, erməni kəndlərinin özləri bunu istəmirdilər. Mirzoyan bu müddət ərzində erməni daşnak müəllimlərin köməyi ilə zəmin hazırladı və məsələni Zaqafqaziya Diyar Komitəsinə keçirdi. Bu məqamdan kəndlilərin və türklərin (azərbaycanlıların M.Q.) kəndlilərə münasibəti olduqca kəskinləşmişdi. Azərbaycan kəndlilərinin və Azərbaycan partiya və sovet işçilərinin erməni kəndlilərinə münasibəti nəzərdə tutulur. Daha sonra Nərimanov sözünə davam edirdi. Daha sonra Gəncənin dağlıq hissəsi haqqında məsələ gəlir və i.a. Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir".

**Nərimanov Azərbaycanda aparılan antitürk, anti-Azərbaycan siyasətinin arxasında kimlərin durduğunu çəkinmədən göstərirdi. O, yazırdı:** "Mənim zərrə qədər şübhəm yoxdur ki, Serqo və Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyini erməni daşnaklarına tapşırır. Nə kimi nəticə olacağını demək çətindir. Lakin əgər olsa, bunun bütün məsuliyyəti Serqo və Stalinin üzərinə düşəcəkdir. Maraqlı odur ki, bu şəxslər elə fikirləşir ki, türklər o qədər axmaqdırlar ki, bütün bunları başa düşmürlər… Bakı təşkilatının və əlbəttə, Serqonun işini xarakterizə edən misal budur. Serqonun siyasəti isə Stalin tərəfindən müdafiə edilir. Nərimanov öz məktubunda xüsusi olaraq vurğulayırdı ki, Stalin, Orconikidze biz türkləri sevmir, Çiçerin Şərqi tanımır… Gedəcək yolumuz yoxdur. Azərbaycanda vicdanlı işçilər… Mən təkrar edirəm, yaddan çıxarmayacaqlar".

Burada onu da xüsusi vurğulamaq lazımdır ki, Nərimanov Stalin, Orconikidze, Çiçerin, Kirov, Mikoyan və b. ilə uzun illər yaxın təmasda olmuş, aralarında isti, belə demək olarsa, bolşevik münasibətləri olmuşdur. Ancaq, milli təəssübkeşliyini, heç kimə güzəştə getməyib. Bax, N.Nərimanov belə kişi olmuşdur.

Nərimanov öz məktubunu Siyasi Büroya elə bir vaxtda yazmışdı ki, V.İ.Lenin xəstə idi, bütün hakimiyyət isə, demək olar ki, Stalinin əlində cəmləşmişdi.

1921-ci il oktyabrın 17-də RK (b) P MK Siyasi Bürosu, Azərbaycanda Kommunist partiyasının milli siyasətinin keçirilməsi haqqında" direktiv qəbul edilmişdir. Onu da deyək ki, bu direktivin layihəsi İ.Stalin, G.Orconikidze, N.Nərimanov, M.Hacıyev və M.Qasımovdan ibarət komissiya tərəfindən işlənib hazırlanmışdı. Direktivlərdə azərbaycanlıların milli, məişət xüsusiyyətlərinin nəzərə alınması zəruriliyi qeyd edilirdi. Azərbaycanın coğrafi mövqeyi, strateji vəziyyəti nəzərə alınaraq, onu nümunəvi Sovet Respublikasına çevirmək məqsədi qarşıya qoyulmuşdu. Azərbaycan Şərq üçün nümunəvi respublika olması göstərilirdi. Ancaq, belə bir direktiv göstərişlərinin işdə mərkəz tərəfindən Azərbaycanda başayaq aparıldığını görən milli patriot Nərimanov bunlara dözə bilmir, silahdaşlarının siyasi və mənəvi sapmalarına qarşı açıq-açığına, heç kimdən çəkinmədən, heç kimdən qorxmadan, üzlərinə, mərdi-mərdan öz sözünü deyirdi.

N.Nərimanov Azərbaycanda mərkəz - Moskva tərəfindən aparılan düzgün olmayan siyasət haqqında vaxtilə V.İ.Leninə də bildirmişdi. Bu həm də təkcə "bildiriş" yox, kəskin etirazlar idi. 1921-ci ildə N.Nərimanovun V.İ.Leninə göndərdiyi məktub heyrətamiz cəsarətlə yazılmışdır. Məktubda mərkəzin Azərbaycanın suveren hüquqlarını pozduğu qeyd olunur. N.Nərimanov məktubda yazırdı: "Əziz Vladimir İliç. Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz (yəni Moskva - M.Q.) Gürcüstan və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda o, Mərkəz, Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir. Əgər bu ərazilər Gürcüstana verilmiş olsaydı, əfkari ümumiyyə ilə bir təhər mübarizə aparmaq olardı. Lakin Ermənistana, daşnaklara vermək, düzəldilməsi mümkün olmayan, pis nəticələr verə biləcək səhvdir" - Mərkəzdən hər gün nümayəndələrin gəlib respublikanın daxili işlərinə qarışmasını heç cürə qəbul etməyən Nərimanov daha sonra yazırdı: "Əziz Vladimir İliç, məgər "Müstəqil Azərbaycan" Sizin dilinizdən çıxmamışdırmı?" İndi vəziyyət belə bir şəkil alır: həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik də Azərbaycanın ərazilərini almışdır… Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirir". Daha sonra bu cəsarət mücəssəməsi yazırdı: "Vladimir İliç, çox millətli əhalinin hüquq və hissləri ilə belə zarafat etmək olmaz. Siz inanmayın ki, Azərbaycan çoxsaylı şüurlu rus fəhlələri yaşayan Bakı deməkdir. Bu kobud səhvdir. İndi Bakıda şüurlu müsəlman fəhlələrinin sayı iki dəfə çoxdur. Bəs bütün Azərbaycan kəndliləri.

Mən qəti surətdə bildirirəm: əgər Siz də bizim dəlillərə diqqət yetirməsəniz, məcbur olacağıq ki, bizim geri çağrılmağımız barədə Mərkəz qarşısında məsələ qoyaq. Onda qoy tarixən dolaşıq milli məsələləri belə asanlıqla həll edənlər bura gəlsinlər. O zaman bilərik ki, bizim mənasız - Şərqə doğru - çığırtımız nə deməkdir… və bütün bunların müqəssiri kimdir. 1-ci Mərkəzin xəbərsizliyi və 2-ci Mərkəzdə oturmuş erməni daşnak-kommunistlərinin iyrənc işi".

**Deməli, N.Nərimanov bütün səviyyələrdə erməni daşnaklarına və onların havadarlarına qarşı həmişə mübarizə aparmış, onların çirkin sifətlərini ifşa etmiş, öz sözünü demiş, heç şeydən çəkinməmişdir. Mərhaba belə kişiliyə!**

Ancaq bütün bunlar bütöv Şərqi düşünən bu böyük şəxsiyyətə, baha başa gəldi. N.Nərimanov 1925-ci il martın 19-da qəflətən vəfat etdi. Şərq xalqlarının inqilabi rəhbərinə və imperializm zülmü altında olanların azadlığı uğrunda bütün varlığı ilə çarpışmış yenilməz mübarizin həyatı söndü…

Doğrudur, N.Nərimanov Qızıl Meydanda dəfn olundu. Həmən gün bütün dövlət idarələrində iş dayandırıldı. Dəfn günü - martın 23-ü matəm günü elan edildi. Həmin gün SSRİ və müttəfiq respublikaların hökumət binalarında, SSRİ-nin xaricdəki diplomatik binalarında və hərbi, ticarət donanmasının gəmilərində dövlət bayraqları beş dəqiqəliyə endirildi. O vaxt N.Nərimanovun adını əbədiləşdirmək üçün işlər də görüldü. Belə ki, Bakıda, Həştərxanda onun adına rayon, Özbəkistan SSR-də şəhər, Moskvada küçə, SSRİ-nin bir çox yerlərində məktəblər, ali məktəb, mədəni-maarif ocaqları verildi… Ancaq, çox keçmədi. N.Nərimanovun düşmənləri baş qaldırdılar (yəqin ki, Mərkəzin razılığı ilə) bütün İttifaqda "narimanovşina" - "nərimanovçuluq" baş aldı. Kim ki, öz vətəni, xalqı haqqında səmimi, isti söz dedisə, o adamı "nərimanovçu" adlandıraraq yer-lə-yeksan edirdilər, onları sosializmin düşmənləri adlandırırdılar. Ölkədə onun adına nə vardısa üstündən qara xətt çəkdilər.



Bir xeyli belə davam etdi. Onun adını doğma xalqına belə unutdurmağa çalışdılar. XX əsrin 40-50-ci illərin nəsli artıq N.Nərimanovu tanımırdı. Ancaq, hər hökmü bir zaman verir - deyirlər. Stalinin vəfatından sonra bir çox həqiqətlər öz yerini aldı. Böyük S.Vurğun dediyi kimi: "qızılı udsa da qara torpaqlar, yenə qiymətini özündə saxlar".

Artıq ötən əsrin 60-70-ci illərində N.Nərimanov haqqında məqalələr, sonra kitablar yazılmağa başlandı. Bütövlükdə isə N.Nərimanovu təkcə öz doğma xalqına yox, bütün Şərqə yenidən bəxş edən böyük Azərbaycanlı Heydər Əliyev oldu. 1970-ci ildə N.Nərimanovun anadan olmasının 100 illiyi tamam oldu.

Respublikanın başçısı Heydər Əliyevin rəhbərliyi altında çoxlu tədbirlərin keçirilməsi nəzərdə tutuldu. Bundan xəbər tutan ermənilər, onların Mərkəzdə - Moskvada yüksək kürsüdə əyləşənləri, xüsusən Azərbaycan xalqının qatı düşməni S.Şaumyanın oğlu "Bolşaya Sovetskaya Ensiklopediyasının" baş redaktorunun birinci müavini, siyasi aləmdə at oynadan L.Şaumyan bu işə mane olmağa başladılar. Onlar SSRİ rəhbərliyinə N.Nərimanovun millətçi olduğu haqqında yalan məlumatlar göndərirdilər. Onlar bilirdilər ki, Heydər Əliyev Nərimanovun Bakıda möhtəşəm heykəlini ucaltmaq istəyir. Buna mane olmaq üçün nələr etmirdilər. Ancaq, Heydər Əliyev də Heydər Əliyev idi. Heydər Əliyev də istedadlı dövlət xadimi olmaqla bərabər, həm də yüksək dərəcədə xalqını, millətini sevən, prinsipial, səriştəli vətənpərvər idi. O, dəfələrlə L.İ.Brejnevlə, Suslovla görüşdü, həqiqəti onlara çatdırdı, nəhayət, erməni dəstəsilə 2 illik savaşı onun qələbəsi ilə nəticələndi. Bakının ən görkəmli yerində N.Nərimanova möhtəşəm heykəl ucaldı. L.Şaumyan və onun K0-ları, sözün həqiqi mənasında yana-yana qaldılar. Vaxtı ilə Nərimanov daşnak erməni kommunistlərini necə ifşa edirdisə, 50 il sonra Nərimanov əməllərinin dahi davamçısı Heydər Əliyev onları göz qabağına soxmağı bacardı.

**1972-ci ildə Heydər Əliyev N.Nərimanovun heykəlinin açılışında demişdir: "Nəriman Nərimanov bu gün də bizimlədir. O, özünün nəhəng qaməti ilə burada qocaman Xəzərin dalğaları üzərində ucalır, vuruşlarda və yaradıcı əməyi şöhrətini qazanmış Bakıda ucalır və tanınmaz dərəcədə dəyişilmiş respublikamızın düzlərinə elə bir iftixarla nəzər salır, xalqın səadəti uğrunda çarpışmış mərd mübarizlə görüşə gəlmiş zəhmətkeşlərin çoxmillətli dəstələrini diqqətlə gözdən keçirir".**

O vaxtlar Heydər Əliyevin hər bir çıxış və nitqləri bütün ittifaq miqyasında yayılırdı və ermənilərə dağ çəkirdi. Heydər Əliyev Nərimanovun adının əbədiləşdirilməsi üçün təkcə respublikamızda deyil, bütün Sovet İttifaqında çox işlər görür. 1977-ci ildə Bakıda N.Nərimanovun ev muzeyi açıldı. Ulyanovski şəhərində Nərimanov prospektində Nərimanovun büstü qoyuldu. Abidənin açılışında Heydər Əliyev iştirak etmiş və geniş nitq söyləmişdir.

Vətənini, xalqını bütün varlığı ilə sevən Heydər Əliyev Azərbaycan xalqının dəyərli övladlarının adlarının əbədiləşdirilməsi üçün, belə şəxsiyyətlərin xalqa, Vətənə qaytarmaq üçün titanik işlər görmüşdür.

Bu gün Heydər Əliyev yolunu, ideyalarını, arzularını ləyaqətlə, həm də böyük məharət və istedadla həyata keçirən Prezident İlham Əliyev cənabları xalqımızın adını, şərəfini, milli qürurunu qoruyan bütün şəxsiyyətlərə böyük hörmətlə, böyük diqqətlə yanaşır, onların unudulmasına imkan vermir. Nəriman Nərimanovun 150 illiyinin respublikamızda keçirilməsi barədə Prezidentin verdiyi sərəncam buna layiqincə sübutdur.

**Bütün həyatını doğma xalqının və eləcə də bütün Şərqin azadlığı, xoşbəxtliyi uğrunda fəda etmiş görkəmli dövlət və siyasi xadim, görkəmli ədib, dramaturq, publisist, həkim, müəllim və ən ümdəsi əsl xalq adamı, vətənpərvər şəxsiyyət olan Nəriman Nərimanovun adı xalqımız tərəfindən həmişə yad ediləcək, əbədiyaşar bir şəxs olacaqdır.**

**Musa QULUZADƏ,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, tarix elmləri doktoru, Əməkdar müəllim**